*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2*
*Səhifə: 58-67*
*https://doi.org/10.59849/2663-4406.2024.2.58*
*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

## Rahil Tahirli yaradıcılığında Cəlaləddin Rumi motivləri

**Lütviyyə Əsgərzadə**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Annotasiya.** Türk təsəvvüfünün əsasını qoyan böyük mütəfəkkir və mistik şair Mövlanə Cəlaləddin Ruminin ideyaları ətrafında formalaşan və imperiyanın coğrafiyasının genişlənərək hər yerə çatmaq imkanı qazanan mövləvilik yeddi əsrdir ki, özünüdərkə qədəm qoyan insanlara yol yoldaşlığı edir. Yola qədəm qoyan, fəlsəfi düşüncələrini poetik şəkildə poeziyasında ifadə edən şair, publisist Rahil Tahirli XXI əsrdə Mövlanənin fəlsəfi düşüncələri ilə yaşayan və yazan şairlərdəndir.
Məqalədə, XIII əsrdə yaşamış Mövlanə Cəlaləddin Ruminin fəlsəfəsi və bəşəri eşqdən ilahi eşqə addımlama mərhələsi XXI yüzildəki düşüncə ardıcıllarından olan publisist və şair Rahil Tahirlinin şeirləri olaraq təhlil edilir, aynaların mahiyyəti, bütövlükdə onun fəlsəfi düşüncələri, Tanrı, insan, dünya, kainat, ölüm haqqındakı fikirləri, Mövlanənin fikirləri ilə paralelləşdirilir. Şairin sufiyanə fikirlərinə ayna tutmağa çalışılır.
Bu qənaətə gəlinir ki, Rahilin misralarına pıçıldadıqları Mövlanənin fəlsəfi düşüncələrinin XXI əsrdə modern inikasıdır. Ney kimi inləyən könlünün təlatümüdür, anlatmaq istədikləridir, Tanrı ilə ünsiyyətidir, ruhunun aynasıdır.
**Açar sözlər:** təsəvvüf, Eşq, varlıq, ayna, Cəlaləddin Rumi, Rahil Tahirli

**Məqalə tarixçəsi:** göndərilib – 13.09.2024; qəbul edilib – 20.09.2024

## Motives of Jelaleddin Rumi in the creativity of Rahil Tahirli

**Lutviyya Asgerzade**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Abstract.** Mawlaviyya that has formed around the ideas of Mevlana Jelaleddin Rumi, great thinker and mystical poet, founder of Turkish Sufism and gained the ability to reach everywhere the empire's geography expanded is a companion for people who have stepped on the path of self-consciousness for seven centuries. Rahil Tahirli, poet-publicist who expressed his philosophical thoughts poetically in his poetry is one of the poets who lived and wrote with the philosophical thoughts of Mevlana in the 21st century.
In the article the philosophy of Mevlana Jelaleddin Rumi lived in the 13th century and the stage of transition from human love to divine love is analyzed like the poems of Rahil Tahirli, poet-publicist and the follower of thought during the 21st century; the essence of mirrors, the philosophical thoughts as a whole, the thoughts on God, human, world, universe, death are parallelized with the





thoughts of Mevlana. tries to reflect the poet's Sufi thoughts. He tries to reflect the poet's Sufi thoughts.
It is concluded that The thoughts in Rahil's poetry are a modern reflection of Mevlana's philosophical thoughts in the 21st century. This is an emotion of his heart and what he wants to say, the communication with God, a mirror of the soul.
**Keywords:** Sufism, love,existence, mirror, Jelaleddin Rumi, Rahil Tahirli

**Article history:** received – 13. 09.2024; accepted – 20.09.2024

### Giriş / *Introduction*

Türk təsəvvüfünün əsasını qoyan böyük mütəfəkkir və mistik şair Mövlanə Cəlaləddin Ruminin (1207-1273) ideyaları ətrafında formalaşan və imperiyanın coğrafiyasının genişləndiyi hər yerə çatmaq imkanı qazanan mövləvilik yeddi əsrdir ki, özünüdərkdə insanlara yol yoldaşlığı edir. Cəlaləddin Rumi yaradıcılığının əsas məzmunu irfan və təsəvvüfün əsas mövzularından biri olan eşq və onun fəlsəfəsidir. Eşq insanın həyatında daima mövcud olan bir həqiqətdir ki, "Hədsiz sevgi" kimi ifadə edilir, insanın varlıq səbəbi kimi xarakterizə olunur. "Eşq elə bir cövhərdir ki, onun qaynağı yalnız Allahdır. İnsanın yaradılış qayəsi, seyri-camal və kəsbi-kamaldır. Kamil insan baxdığı hər yerdə bu ilahi hikməti və ülvi gözəlliyi görən şəxsdir" [11, s.188]. Eşq bir şüur halıdır. Sevginin son mərtəbəsi, sevginin insanı tam olaraq hökmü altına alması", "sevginin ən mükəmməl şəklidir" [12, s.59]. "Qurani-Kərimdə "eşq" sözü işlənməsə də sevgi mənasında "hubb" (məhəbbət) sözü işlənir. Qurani Kərim məhəbbətlə imanı bir-birinin vəhdəti saymış, Allahı sevməyi, onun sevgisi ilə xeyirxah işlər görməyi möminin üstün xüsusiyyəti olaraq görmüşdür" [6, s.73].

### Əsas hissə / *Main Part*

Təsəvvüfdə eşq kamil insan olma yollarından biridir. "Bu yolların ən qısa olanıdır. Təriqüş-şüttar məhz bu yoldur. Təsəvvüf düşüncəsində eşq Allaha və insana aid edilir. Yaradan öz xəzinələrini aşkar etmək üçün insanı yaratmışdır, bu səbəbdən də insan yer üzündə Allahın xəlifəsidir" [1, s.182]. Eşqə metafizik məna verən mütəsəvvüflər, onu "var olma" səbəbi saymış, dünyəvi eşqi ilahi eşqi axtarmaqda bir mərhələ olaraq görmüşlər. Başda İbn Ərəbi olmaqla, "Allah gözəldir, gözəli sevər", – hədisinə istinad edərək insanın bir gözəl axtarışında olduğunu və bu axtarışda keçdiyi mərhələləri göstərmişdir ki, mütəsəvvüflərə görə, qadına duyulan eşq də ilahi eşqə gedən yolda bir mərhələ sayılır [5, s.21-25]. Təsəvvüfdə bu mərhələlər bəşəri eşqdən ilahi eşqə doğru keçilən yoldur. Mövlanənin yaradıcılığında bu mərhələni izləmək mümkündür.

Mövlanə Şəms-i Təbrizi ilə tanış olana qədər böyük bir elm və din alimi kimi tanınırdı və İplikçi mədrəsəsində xütbələr oxuyurdu. Yəni Mövlanə hələ yer aləmində idi. Şəms-i Təbrizi ilə görüşən Mövlanə (15 noyabr 1244) Şəmsdə "mütləq kamilin varlığını" və onun simasında "Allahın nuru"nu görmüş və birlikdə mənəviyyatın dərinliklərini kəşf etmişlər. Şəms-i Təbrizi onun arzusunu təcəssüm etdirmişdir. Şəmsdən sonra Mövlanə daha da saflaşmışdır: "İstəyirsən ona bax, istəyirsənsə mənə bax, biz ayrı adamlar deyilik, o məndədir, mən də onda." Lakin onların birliyi uzun sürməmiş, Şəms-i Təbrizi sirli şəkildə yox olmuşdur. Şəmsin yoxluğu Mövlanəni çox üzmüş, qəlbində böyük dəyişikliklərə səbəb olmuşdur. Mövlanə uzun illər inzivaya çəkilmiş və bütün zamanların ən mükəmməl sufi şeiri sayılan, 25 min beytdən ibarət və sütunu eşq olan "Məsnəvi"ni yazmışdır. Tam əminliklə deyə bilərik ki, Şəmsin ən böyük əsəri "Mövlanə", Mövlanənin ən böyük əsəri "Məsnəvi"dir. "Məsnəvi" Mövlanənin özü, Şəmsin ruhudur. Şəms Təbrizini tanıdıqdan sonra dünyaya eşq çərçivəsindən baxan Mövlanəyə görə, bütün kainat eşq üzərində hərəkət edir, bütün mövsümlər eşq sayəsində dəyişir. İnsan-kainat, insan-Tanrı və təbiət-Tanrı münasibətləri eşq üzərində dövr edir" [9, s.8]. Eşqin təsəvvüfi baxımdan nə mənaya gəldiyi "Məsnəvi"də inikas edir:

"Neydəki atəş ilə meydəki cuşa gəlmə (qaynama) eşqin əsəridir" [13, s.137]. "Məsnəvi"nin beytlərində izləyək: "Torpaqdan yaradılmış olan insanın cismi, eşqin təsiri ilə səmalara çıxdı, səmavиləşdi. Hətta dağ o təsir altında çevikləşib oynamağa başladı. Ey aşiq, eşq Tur dağına ruh kimi təsir etdi. Tur məst oldu. Musa da bihuş oldu və yıxıldı" [8, s.21]. Beytlərdən göründüyü kimi, Mövlanə həyatını və əsərlərini eşq üzərində qurmuş, bu gün də hamını düşündürən məşhur "Nə olursan ol, yenə gəl", – ifadəsini eşqdən ilhamlanaraq söyləmişdir. Bunun ən bariz nümunəsi səmazənlərin səma ayinində oxuduqları ayədir: "Nə yana dönsəniz Allahı görərsiniz". "Xudanın sirlərini bəlli edən bir ölçü, bir vasitə, üsturlab" [8, s.111] olan eşq yaşanan bir haldır, vəziyyətdir. Ruhun öz Yaradanını aramasının bir halıdır. Mövlanədə eşq zövqdür, həyatın özüdür. O, şeirlərində planetlərin dönməsini də eşqlə əlaqələndirmişdir. "Ayna kimi olan su yer kürəsi döndükcə, eşqin könlündən qan damlaları coşub qaynamaqdadır", – deyən Mövlanəyə görə, "Eşq bir dənizdir, göy üzü onun köpüyüdür. Göylərin dönüşü eşq dalğasındadır. Eşq sayəsində cansızlar da bitkilərə qarışır" [3, s.335]. Bu düşüncəsi ilə bütün varlıqların Allaha ibadət etməsinə yönəlmiş Mövlanə, əsərlərini yazarkən cəsarətlə "başdan başa irfan və əxlaq kitabı olan və fəlsəfi-didaktik poeziyanın yaradılması üçün əsas örnək rolunu oynamış Quranın ayələrinə istinad etmişdir" [9, s.10]. Mövlanə kainatdakı varlıqların Allaha olan eşqdən hərəkət etdikləri düşüncəsini Qurandan gətirdiyi "Yeddi (qat) göy, yer və onlarda olan hər kəs (bütün məxluqat) Allahı təqdis edir" [8, 17/44] nümunəsilə ifadə edir. Bu zaman o, varlıqların öz vəzifələrini yerinə yetirərkən hərəkətlərini "ibadət" kimi qiymətləndirir: "Göylərdə və yerdə nə varsa, Allahı təqdis edib şəninə təriflər deyər" [7, 59/1].

Mövlanə ilahi eşqi sayəsində ayrılığa sinə gərib birliyə çatmaq istədiyini "Məsnəvi"nin müqəddiməsində belə ifadə etmişdir: "Dinlə bu ney necə hekayət edir; ayrılıqlardan necə şikayət edir. Deyir ki, məni qamışlıqdan kəsdiklərindən bəri fəryadımla kişi də ağlayıb inləmişdir, qadın da. Ayrılıqdan yaralanmış bir könül istəyirəm ki, həsrət dərdini ona danışım. Əslindən uzaq qalan insan, yenə də görüş zamanını axtarar. Mən hər yerdə ağladım, inlədim; günü xoş olanlara da sirdaş oldum, pis olanlara da. Mənim sirrim fəryadımdan uzaq deyil; lakin gözdə, qulaqda o nur yoxdur. Bədən candan, can da bədəndən gizli deyil; lakin kimsəyə canı (ruhu) görməyə izin yoxdur [4, s.14]. Burada birlik qamışlığından kəsilmiş Ney "kamil insan"dan bəhs edir. Öz varlığından keçmiş, həqiqi varlıqda var olmuşdur. Məsnəvi tədqiqatçıları bu istəyin vəhdəti-vücuda əsaslandığını ifadə etmişlər. Mövlanənin və digər təsəvvüf şairlərinin vəhdəti-vücud şeirləri mənəvi sərxoşluq (səkr)* vəziyyətində yazılan şeirlərdir. Lakin vəhdəti-vücud Tanrı demək deyildir. Hər şey Tanrının əsəridir, amma Tanrı deyildir. Sadəcə hər şeyi Onun varlığı ilə birlikdə görmək həqiqi vəhdəti-vücuddur [14, s.112]. Mövlanə bir beytində əsl məqsədinə çatmaqdadır. İnsan bir gözəli sevərsə və bu sevgi eşq dərəcəsinə yüksələrsə, aləmin hər zərrəsi ona sevgilisini xatırladır: "Hər şey məşuqdur, aşiq isə bir pərdədir; diri olan məşuqdur, aşiq isə bir ölüdür. Kimin eşqə meyli yoxdursa qanadsız bir quşa dönər; vay onun halına [4, s.14]. Mövlanə ölümü yenidən doğulma, sevgiliyə qovuşma kimi qəbul edir, insanın qəlbinin fani şeylərə qarşı olan sevgi ilə deyil, Allah sevgisi ilə zövq tapıb xoşbəxt olacağını dilə gətirir: "Günəşin işığı divara əks edir; divar müvəqqəti olaraq işıqlanır. Ey dürüst olan insan, kərpicə niyə könül bağlayırsan. Davamlı olaraq parlayan əsli axtar" [14, s.189]. Mövlanə Tanrını günəşə, ondan başqa bütün varlıqları isə kərpicdən tikilmiş divara bənzədir. Günəşin işıqlandırdığı kərpic divarı deyil, günəşi sevməlidir. Ariflər eşqi İlahi dərgaha çatmaq və onun vüsalına qovuşmaq üçün əsas üsul və təlimlərdən biri hesab etmişlər.

Sufi düşüncəsində böyük diqqət çəkən məsələlərdən biri də hədislərdə "ayna" mənasını verən mir'at sözünün zaman-zaman məcazi mənalarda işlədilməsidir. Təsəvvüf yaranandan bəri sufilər aynadan istifadə etmiş, anlaşılması çətin olan bir çox nəzəri fikirlərini ayna ilə edilən bənzətmə və təsvirlərlə izah etmişlər. Təsəvvüfdə Allahın zühur və təcəlli etdiyi varlıqlar (məzahir, məcali) ayna kimi görünür. İlk dövrlərdə ariflərin Allahın aynası olduğu və təkidlə Allahın bu aynada bütün sifətləri, feilləri və adları ilə təcəlli etdiyi vurğulanmışdı. Vəhdət-i vücud anlayışa görə, Həllac, Allah ona, o da Allaha ayna olduqda "ənəlhaq" demişdir. Bir hədisə görə, "Allah insanın qəlbinə nəzər edər, yəni qəlbin aynasında özünü müşahidə edər; Mömin öz qəlbinin aynasında Allahı seyr edər".

* Səkr məfhumu bəndənin Allahın yaratdıqları qarşısında vəcdə düşməsidir





Ayna elementi İbn Ərəbidə böyük mahiyyət əxz etmişdir. Varlığın vəhdəti ilə bağlı bir çox fikirlərini ayna nümunəsi ilə izah edən İbn Ərəbi həm yaradılış, həm vəhdət-çoxluq, həm də mərifət məsələsini ayna nümunəsi ilə izah etmişdir. Onun fikrincə, Allah eyni ad və sifətləri görmək istədiyi zaman bir ayna olaraq kainatı yaratmışdır.* Kainat Allahın aynası olduğu kimi, kainatın bir parçası olan insan da O`nun aynasıdır. Bu səbəbdən kainata və insanlara "mir'atü'l-hak" deyilir. Allahın ən doğru, ən yaxşı və ən mükəmməl olaraq göründüyü ayna Hz. Məhəmməd və kamil insandır. Ona görə də müdriklər hər şeydə Allahı görür, kamil insan isə O`nu daha yaxşı görür. Qeyd etmək lazımdır ki, burada Allah ilahilik səviyyəsində deyil, müxtəlif təzahür səviyyələrində görünə bilər. Çünki Allah heç vaxt ilahilik səviyyəsində görünmür. Əslində, insanlar Allahın aynası olduğu kimi, Allah da insanların aynasıdır. Biri (vəhdət) çox (bolluq) göstərən aynaya "mir'âtü'l-halk", çoxu bir göstərən aynaya isə "mir'atü'l-haq" deyilir. Həqq həm kainatın, həm də kamil insanın aynasıdır. İnsan Həqqin – Allahın aynasında özünü deyil, Həqqi görür. Necə ki, Bəyazid deyir: "Allahım, sən mənə ayna oldun, mən də sənə". Bəzən də Hz. Məhəmməd Allahın ən mükəmməl aynası sayılmışdır. Süleyman Çələbi, "Sənin zatını özümə hidayət etdim", – dedikdə, Allahın zatının Hz. Peyğəmbərin simasında göründüyü bildirilir. Buna "ayine-i zat" deyilir. Yüksək səviyyədə təzahür mahiyyət üçün mahiyyətin təzahürüdür. "Mir'at-ı vücud"** ifadəsi də bu mənada işlənmişdir. Şeyx Qalib "Ayine-i vəhdet-i ilahi/Mir'at-ı vücududur kamahi" deyərkən bunu nəzərdə tutmuşdu. Varlığın və imkanın ən yüksək mərtəbəsi "mir'âtü'l-həzrəteyn" adlanır***. Mirət-i ilahiyə də eyni mənaya gəlir. Kamil insan hər ikisinin aynasıdır.

Sufilər təsəvvüf elminə hazırlanmaq üçün qəlbin təmizlənməsini və nurlanmasını daha çox ayna elementi üzərindən izah etmişlər. Qəzzalinin "İhya`ü `ulumid-din", Ruminin "Məsnəvi", İbn Xəldunun "Şifa`üs-sail" əsərlərində qəlbin ilahi bilgilərlə hazırlanışı yenə ayna nümunəsi ilə izah edilmişdir (yunan rəssamlarla Çinli sənətkarlar arasında rəqabətdən bəhs edən hekayət). Qeyd edək ki, Mövləvi fəlsəfəsində, bütövlükdə təsəvvüfdə eşqdən və ayna motivindən, onların mahiyyətindən bu qədər geniş bəhs etməyimiz təsadüf deyil. Məqalədə, əsrlər boyu mənəvi irsi böyük rəğbətlə qarşılanan, şeirləri dünya dillərinin əksəriyyətinə tərcümə edilən, "ən məşhur" və "ən çox şeiri satılan şair" kimi tanınan Mövlanənin XXI əsrdəki düşüncə ardıcıllarından olan publisist və şair Rahil Tahirlinin sufiyanə fikirlərinə ayna tutmağa çalışacayıq. "Aynadakı adam" kitabındakı şeirlərində aynaların mahiyyəti, bütövlükdə onun fəlsəfi düşüncələri, Tanrı, insan, dünya, kainat, ölüm haqqındakı fikirləri, mütəsəvvüf Mövlanə ilə paralel şəkildə təhlil olunacaq.

**Cəlaləddin Rumi və Rahil Tahirli yaradıcılığında paralellər.** İlk öncə başlayaq, şairin kitabına verdiyi addan: "Aynadakı adam". Ayna və adam... Adam sözünün izahı açıq ensiklopediyada belə verilir, "Şüurlu davranmaq, danışmaq və düşünmək qabiliyyəti olan ictimai varlıq, yəni insan və ya adam".**** Əsasən, insanların arasından əxlaqı, təfəkkürü, davranışı, comərdliyi ilə seçilən şəxslərə adam deyilir. Ayna isə ta qədimdən bir çox cəmiyyətdə diqqət çəkmiş bir obyektdir. Az öncə aynaların islamda, təsəvvüfdə hansı mahiyyət kəsb etməsindən ətraflı bəhs etdik. Qeyd etmək lazımdır ki, vəhdəti-vücud fəlsəfəsində olduğu kimi, bütün dinlərdən öncə yaranan və türkün

* Bax: Muhyiddin-i Ərəbi həzrətləri, əzəldən bəri Allahın elmində sabit olan şeylərin formalarını "əyani sabitə" adlandırır. Allahın elmində olan varlıqlar . Əyan-i sabitə, mümkün varlıqların ilahi bilgisində əbədi həqiqətlərdir. Mümkün varlıqların zühuru onların sabit şeylərdəki meyillərinə görə baş verir. A'yan-ı sâbite mahiyyət, kimlik və substantivlər də adlanır. Eyni zamanda, "əyan-ı sabitə" də qədərin sirri sayılır.

** Divan ədəbiyyatında ən çox işlənən rəmzlərdən biri olan Mirat, ruyet sözündən törəmişdir. Ruyet baxmaq və görmək deməkdir. Mirat sözünün ilk mənası aynadır. Təsəvvüfdə kainat Allahın zatını və gözəlliyini izlədiyi bir mirat olaraq təyin olunur.

*** Ərəbcə iki övliyanın güzgüsü mənasını verir. Kamil İnsan bütün adlarla bir olanın təcəllisidir.

**** Adam/https://en.wikipedia.org

düşüncə sistemi sayılan şamanizmdə də aynaların önəmli missiyası var. İnanca görə, şaman aynaya baxaraq gələcəkdən xəbər verir, öz ruhunu görə bilir. Qədim dünyada olduğu kimi, dini-sehrli dəyər verilən ayna "Orta əsrlər İslam incəsənətində mühüm yer tutmuşdur. Xalq arasında aynanın sahibinə bəxt, şəfa verdiyinə inanılmış, hazırlandığı metalların növü və nisbətindən asılı olaraq təsirli olduğu qəbul edilmişdi. Bu minerallar yeddi planetlə əlaqəli olduğu güman edilən qızıl (Günəş), gümüş (Ay), mis (Venera), qurğuşun (Saturn), qalay (Yupiter), dəmir (Mars) və civədir (Merkuri)" [10, s.330-332].

Folklorumuzda, sehrli aynaların gələcəkdən xəbər verməsi, uzaq yerləri göstərməsi, insanlarla danışması haqqında geniş fikirlər var. Zaman-zaman aynaya dərin və fərqli mənalar yüklənmiş, ayna ruhlar aləminə açılan pəncərə kimi qəbul edilmiş, eyni zamanda bu dünya ilə o biri dünya arasında sərhədi simvolizə etmişdir. Nizami Gəncəvidən bəri Azərbaycan poeziyasında geniş şəkildə əks olunmuş ayna haqqında fəlsəfi düşüncə Rahil Tahirlinin poeziyasında inikas edir.

R.Tahirlinin ayna haqqında fəlsəfi düşüncələri, aynalarla həsbi-halı, aynaların ona, onun aynalara anlatdıqları düşündürücüdür. Şairin şeirlərinin təhlilindən öncə aynanın vəhdəti-vücud fəlsəfəsində və türkün ən qədim inanc sistemi sayılan Şamanizmdəki yerindən, aynadan, aləmdən onun sehrindən bəhs etməyimiz, şairin kitabına "Aynadakı adam" adını olaraq seçməsi kimi təsadüf deyil. Rahil Tahirli ruh adamıdır, şaman kimi üzü göylərədir, anlamaq və anlatmaq istədikləri mənəvi müstəvidədir. Şeirlərin ruhu, daha doğrusu, şairin ruhu, düşüncəsi oxucunu mütəsəvvüf Mövlanənin dini-mistik fəlsəfi dünyasına götürür. Düşüncə sistemini qələmə aldığı "Məsnəvi"ni, ilk on səkkiz beytində birinci yerdə olan neyi xatırladır. Köhnə təfsirçilərə görə, bu on səkkiz beytdəki ney kamil insandır. Neydən çıxan hər bir səs Allahın iradəsini bildirir. Mövlanənin dinləməmizi istədiyi ney Allahın gizli sirlərini açır. Üzü saralmış, başı kəsilmiş, içi boşalmış, bağrı yandırılaraq deşiklər açılmış və neyzənin nəfəsinə tərk edilmiş ney "Xuda, Xuda deyir".

Axtarışda olan şairin şeirləri Tanrı, insan, dünya, kainat, ölüm haqqındakı düşüncələrinin poetik ifadəsi, "ney" kimi anlatmaq istədikləridir. "Bu dünya ilə xırda ilişiyi qalan" Rahilin anlatmaq istədikləri ruh dünyasında yaşadıqları, aynaya (aləmə) baxdıqda gördükləri, "Göy üzündə qalan Xuda"sına pıçıldadıqlarıdır: "O mənim evimdir-yanıb, / Mən də içində yanmışam". "Xəbərim yox yer üzündən, / Göy üzündə Xudam qalıb. /İndi hamı çıxıb gedib, /Aynadakı adam qalıb" [12, s.40].

Şeirlərində Ruminin fəlsəfi düşüncəsini inikas etdirən şair, aynanın fəlsəfəsini bilir. Rahilin "Mən də içində yanmışam", – sözləri Ruminin məşhur "Xamdım, yandım, bişdim", – sözlərini xatırladır, şairin dünyagörüşünün hansı mərhələdə olmasından xəbər verir. Rahil Tahirlinin ayna ilə söhbəti, mənəvi dünyasına səyahəti özündən-özünə səyahətidir. Özündən-özünə səyahət məşhur "Şeyx Sənan" hekayəsində belə anladılır: "Quşlar özlərinə şah seçmək qərarına gəlirlər. Bu zaman vaxtı ilə Süleyman peyğəmbərin elçisi olmuş Hüdhüd quşu deyir ki, onlara ancaq Qaf dağının arxasında gizlində yaşayan Simruğ şah ola bilər. Hüdhüdün məsləhəti ilə Simruğun yanına yola düşməyə hazırlaşan quşlar bu səfərdə hüdhüddən onlara bələdçi olmağı xahiş edirlər. Uçuş başlanır. Yol çox uzun və əziyyətli olduğundan quşlar bir az tərəddüd edirlər, bəziləri geri qayıtmaq istəyirlər. Hüdhüd quşların geri dönmək istəyində haqlı olmadıqlarını sübut etmək üçün onlara əsasən, təsəvvüfi həqiqətləri özündə əks etdirən hekayələr nağıl edir. Əziyyətli yolda quşların bəzisi yorğunluqdan, bəzisi aclıqdan ölür, yalnız 30 quş "dərgahın" qapısına çatır. Birisi gəlib qapını açır və onlara geri qayıtmalarını söyləyir. Sonra biri gəlir və onları içəri dəvət edir. İçəri girən quşların qarşısına yazılı kağızlar qoyulur, təklif olunur ki, oxusunlar. Quşlar kağızda bütün etdiklərinin yazıldığını görüncə heyrətə düşürlər. Bu anda Simruğ "təcəlla" edir. Onların gördükləri Simruğ özlərindən başqası deyildi. Simruğda özlərini, özlərində isə Simruğu görən quşlar Simruğun ardarda "təcəlla" etməsini görüncə heyrətdə qalırlar. Bu zaman bir səs duyurlar: "Siz buraya "Si mürğ" gəldiniz" [2]. Yolçular bundan sonra inanırlar ki, onların axtardığı gizli padşah – Simruğ elə özləridir. Yəni quşlar özlərindən özlərinə səyahət etmişlər. Rahilin də aynalarla söhbəti, özündən-özünə səyahətidir. Və bu səyahət üçün ən önəmli obyekt aynadır. Şairin aynanı obyekt olaraq





seçməsi təsadüfi deyil, əksinə az öncə bəhs etdiyimiz kimi, sufi mahiyyətdədir. Onun üçün aləm eyni anda həm ayna, həm də əksdir. Surət, ayna və əks arası bu incə məqamları nəzərə alan, Türk-İslam fəlsəfəsində xüsusi yer və dəyərə sahib olan Sədrəddin Konəvinin fikrincə, ayna özündə əks olunanın həqiqəti üçün yox, onun bənzəri və görüntüsü üçün mahaldır. Aləm vahid varlıq və varlığa sahib yeganə vücudun, Tanrının aynasıdır. Bu qədər müqəddəs missiya yüklənən ayna, həm aləmi, həm aləmləri yaradanı – Tanrını, həm də özümüzü göstərir. Hətta anlayana savablarını, günahlarını da göstərir. Bir növ insanın nəzarətçisi rolunu oynayır. Vəhdəti-vücudda aləm sayılan aynada özünə baxmaq, özünü görmək, mənfiləri düzəltmək, özünütərbiyə etməyə çalışmaq insanın kamilləşmə prosesinin başlanğıcıdır. Rahili də özündən-özünə səyahətə götürən, özünü, aləmi, aləmləri yaradanı xatırladan, özünü unutmağa qoymayan aynalardır: "Arzum yolda qalmasa, / Məni fikir almasa. /Aynalar da olmasa, / Unudaram özümü... [12, s.44]

Tanrının aynası sayılan aləm sirlərlə doludur. Adəm-insan daima bu sirləri araşdırmağa, öyrənməyə çalışıb. Bu bütün dövrlərdə aktual olub. Dünyanın dərki fəlsəfənin, elmin digər sahələrinin, həmçinin ədəbiyyat və incəsənətin tədqiqat predmeti olub. Dünyanı hiss etmək, dərk etmək, özünüdərkdən keçir. Özünü dərk edən dünyanı və O`nu dərk edir. Şairin də arzusu budur, "Dünyanı hiss et ki, dünya bürünsün sənə". Aləmlə bütövləş, vəhdətdə ol. Aləmi ayna olaraq gör və dərk et. "Səs eşitcək özün get,/Öz hayına özün yet, /Durub dünyanı hiss et/Dünya bürünsün sənə" [12, s.19].

Deyirlər ki, Şəms Təbrizi Bağdadda Şeyx Əvhədəddin Kirmaninin yanına gedib. Görüb ki, Şeyx diqqətlə qarşısındakı teştə baxır. Ondan soruşur: "Nə iş görürsən?" Kirmani deyir ki, "Teştdə aya baxıram". Şəms də cavabında deyir: "Boynunda çiban yoxdursa, nə üçün ayı göydə görmürsən?" Rahil "aya teştdə baxmır" ayna olan aləmi, göydəki Ayı, Günəşi görür, "dünyanı hiss edir". Dünyanı hiss etmək, onun gizlinlərini anlamaq, haradan gəlib haraya gedəcəyini və bu dünyadakı missiyasını bilmək hər adamın işi deyil. Hər payız ölüb, hər yaz dirilən ağacın, təxminən bizdən 150 milyon km məsafədə yerləşən Günəşin bizi isitməsini, Yerdən parlaq ağ rəngdə görünən Ayın sehrinə düşmək, ulduzlarla danışmaq, məzarları torpağın yaxasını açmaq kimi ("aç yaxanı mən gəlim, torpaq") dəyərləndirmək və bütün bunları poetik şəkildə təqdim etmək üçün yalnız şairlik kifayət deyil. Bu yalnız fəlsəfi və elmi düşüncə ilə mümkündür. Doğrudur, bütün bunların hamısı, məsələn hər payızda ölən və hər yazda dirilən ağacların yarpaqlarını tökməsi təbiətin qanunudur. Lakin şair içində yaşadığı təbiətin ruhunu, dilini anlamırsa, o zaman şair nə qədər istedadlı olursa olsun, şeirində fəlsəfi qat olmur. Fəlsəfi düşüncə olmayan şeir isə yavan şeir sayılır. Rahil Tahirli təbiəti dərk edir. Onun şeirlərində yarpaqların budaqdan torpağa düşməsi, torpağa qarışması ilə, insanın "torpağın yaxasını açıb geyməsi" eyni mahiyyətdədir. Mövləvi fəlsəfəsini əxz edən Rahildə şairliklə mütəfəkkirlik vəhdətdədir: "Yarpağı düşər budağın, / Yolu aşılar bu dağın, / Öpüb, qoxlayıb... torpağın/ Yaxasın açıb geyərəm [12, s.51].

Olumla başlayıb ölümlə sonlanan həyat adlandırdığımız ömür payını, bu dünyadakı missiyasını və bu dünya ilə yanaşı, başqa bir dünyanın da olduğu qənaətində olan Rahilin dediyi dünya bu deyil. Ruhumuzun aid olduğu məkan, Tanrı dərgahıdır. "Adam da günəş kimidir" şeirində özünün dünya, əcəl və əzəl haqqındakı fəlsəfi düşüncələrini poetik şəkildə ifadə edən şair yazır: "Baxma nəsə etmirəm, / Edəcəyəm, darıxma. / Özümü burda qoyub, / Gedəcəyəm, darıxma [12, s.46]. Özünü bu dünyaya aid olaraq görməyən şair yazır: "Mənim dediyim dünya / Heç bu dünya deyilmiş." Sanki düşüncəsinə təəccüblənənlərə də cavab verir: "Güya başqa nə olur?... / əcəl və əzəl olur. / Adam da günəş kimi / Üfüqdə gözəl olur [12, s.46].

Rahil Tahirli insanın mənəvi yüksəlişini günəşlə paralelləşdirir. Günəş yüksəkdədir və dünyanı işıqlandırır. Bəs insan? İnsan bu dünyanı tərk edərkən onun ruhu göyə yüksələcək. Şair

ruhun aid olduğu yerə yüksəlməsini üfüqdən* gözəl görsənən günəşə bənzədir. "Hara getsə, əli şamlı / Qəmi izləməkdir ömür. / Var-gəl eyləyə-eyləyə / Ölüm gözləməkdir ömür [12, s.27].

Ölümün fəlsəfəsini anlamaq, ölmədən öncə ölməkdir. Mövlanə ölümü sevgiliyə – Tanrıya qovuşmaq olaraq görmüşdür. Dünyaya gəlmək həyata girişsə, ölüm çıxışdır, eyni zamanda, yeni bir başlanğıcdır. Ölümlə bu dünyadakı səyahətimiz başa çatır, ruhumuz aid olduğu yerə, tənimiz yarandığı torpağa qovuşur. Qeyd edək ki, dünyanın əvvəli və axırının, başlanğıc və sonunun simmetriyası bu günədək xalqımızın adət-ənənələrində də yaşayır. Gəlin köçürülərkən qabaqda ayna aparılması (həyatın, yaranışın başlanğıcı), insanın ölən zaman üzərinə ayna qoyulması (həyatın sonu) qədim dünyagörüş ilə bağlıdır. İslam inancına görə, dünyanın əvvəlindən sonuna kimi, baş vermiş və baş verəcək hər şey, bütün hadisələr, əməllər, sözlər, savab və günahlar, o cümlədən, insanın qədəri "lövhi-məhfuz" da qeyd edilir. İnsan ölümüylə dünyaya gəlir. Yəni insan ilk gündən öləcəyini bilir. Ömür, "var-gəl eləyə-eləyə / Ölüm gözləməkdir" [12, s.27]. Şairin "Son şəkli ölüm çəkir" şeirindəki ömür-ölüm haqqındakı fikirləri düşündürücüdür: "Adam gəlib düşür bəndə… / Tanrıya qayıdır bəndə / Sən bilməzsən, ruh bədəndə / Ömür boyu zülm çəkər, / Son şəkli ölüm çəkər [12, s.38].

İnsanın öləcəyini bilə-bilə yaşamasına hər kəs fərqli müstəvidən yanaşır. Dünyadan gedəcəyinə üzülənlərlə yanaşı, Mövlanə kimi, ölümü Tanrıya qovuşmaq, varlıqda yox olmaq kimi qəbul edənlər də var. Mövlanənin XXI yüzildəki davamçılarından olan Rahil üçün ölüm "bədəndə əzab çəkən ruhun" aid olduğu yerə dönməsidir. Şair, atasının ölümünə, ruhun aid olduğu yerə dönməsinə üzülsə də, üsyan etmir: "Soraq gəldi qəbirdən, /Ürək durdu qəfildən. /Atam, ölüm bir də mən, / Üsyan yoxdur, hüzn var" [12 s.37]. Rahil Mövlanə yolçusudur. Yolu da bilir, yolun onu haraya götürəcəyini də. Əminliklə deyir: "Açın qapını mən gəlim". "Vardır çoxlu günahım, / Çoxlu savab əməlim. / Bu günüm necədirsə, / Elə idi əvvəlim, Aç qapını mən gəlim" [12, s.107].

Bütövlükdə, Rahil Tahirlinin min illərdir insanlığı düşündürən ənənəvi mövzulara yanaşması fərqli, düşüncələri fəlsəfidir. Bu qədər ağır suallara cavab axtaran, yoxluğun və ya çoxluğun içində yalnız qalan şair, düşüncələrini "Aynadakı adam"la bölüşür. "Ruh-vücud hesabatı" verir. Hər dəfə ayna qabağına keçəndə yalnız öz varlığını deyil, bu varlığı ona verən Tanrını görür. Rahil üçün ayna, aləmi görməkdir. Aləm isə əks etdirdiyi Tanrı surətinin aynasıdır.

Rahil Tahirlinin bəhs etdiyimiz şeirlərində şairin Tanrı, insan, dünya, tale haqqında axtarışları, düşüncələri ağırlıq təşkil edir. "Bir də məndən bax özünə" şeirində şair cavabsız suallarını Tanrıya ünvanlayır. Bu dəfə şair, aynanın missiyasını üstlənir: "Bir də məndən bax özünə".

"Gəlib qaranlıq içində/Qara bürünürsən Allah. / Bir də məndən bax özünə, / Necə görünürsənn, Allah [12, s.6].

Şair misralarda arda-arda istəklərini ("Və xoşbəxt ola bilməyən / Adamlar yaratma, Allah") və təbiətdə yaşanan təzadları sadalayır: "Gün göstərib çiçəklədib, / Sonra qar yağdırma, Allah". Onu narahat edən problemləri (insanın namərdliyini), "adına dərd deyilən ayrılığı dilə gətirir.

"İnsanlar, kiçik tanrıdırlar" (Qotfrid Leybnits), çünki insan özündə Tanrının zərrəsini yaşadır. "İnsan özünü həqiqətin zirvəsinə qaldırdığı kimi, həqiqəti öz səviyyəsinə endirir" (Rene Qenon), bir də "onun gözündən özünə" (R.Tahirli), "Ol" deyərək yaratdığı dünyaya və insanlara baxmasını istəyir. Bu zaman onu düşündürən önəmli bir məsələyə toxunur, "namərd dünya" məsələsinə. Namərd insanlar dünyanın dəngəsini pozur və onların namərdliyi dünyaya yüklənir: "Namərdliyi insan edir, / Dünyaya namərd deyirlər" [12, s.6]. Bir tərəfdən də, şair, Allahın yaratdıqlarının əməllərindən xəbərdar olduğunu, "bezdiyini" ifadə edir: "Ol" dedin, oldu adamlar, / Dilin gəlmir dağıtmağa. / Bilirəm Sən də bezibsən. / Əlin gəlmir dağıtmağa [12, s.6].

Dünyanı gözəlləşdirən də insandır, dəngəsini pozan da. İnsan gözəlliyə xidmət edəndə dünya da gözəlləşir. Maraqlıdır ki, Şərə xidmət edən, pis əməlləri ilə dünyanın dəngəsini pozanlar özlərini

* Üfüq – açıq yerdə Yer səthinin dairə şəklində görünən hissəsidir ki, bu hissədə göy qübbəsinin kənarları yerə bitişmiş kimi görünür





deyil, Şəri lənətləyir. Bütövlükdə, insan yaşadıqları yaxşılıqlar üçün hər zaman Allaha təşəkkür edir. Etdiyi şəri, pislikləri isə şərə-şeytana yükləyir, onu lənətləyir. Kimsə özünü, əməllərini mühakimə etmir. Halbuki insanın bir küll olaraq maddənin bütün formalarının məcmusu olan kainatda düzəldəcəyi və düzəltməli olduğu tək bir şey var, o da özüdür: "Daş atan atır daşını, /Şeytana, Tanrıya bilmir./Hərdən adamın özü də,/Özünü tanıya bilmir [12, s.51].

Deyirlər ki, Xeyir (insan) Şərə (Şeytana) qalib gəlsə, dünyanın qızıl dövrü başlanacaq. Bunun üçün insan şərə deyil, xeyirə xidmət etməli, əməlləri və fikirləri ilə dünyanın qızıl dövrünün reallaşmasının mümkünsüz olmadığını göstərməlidir. Təəssüf ki, hələ ki, dünyada Şər baş roldadır. Və təəssüf ki, insanları buna sövq edən filosoflar da var. Məsələn, F.Nitsşe əsərlərində insanı və insani keyfiyyətləri öldürməyi öyrədir. Onun qurmağı, yaratmağı dağıtmaqdan, məhv etməkdən başlayır. İlk dağıtmaq istədiyi Tanrını öldürmək olur. Və Tanrının öldüyünü elan edir. İnsanın faciəsi də buradan başlayır. İçindəki Tanrını öldürən insan Şeytanın quluna çevrilir. İnsanlar üçün uçurumlar yaradılır, düyünlər atılır. Digər tərəfdən, insanlar üçün düyünləri yaradan da Tanrıdır. Nədən? İnsanı, təbiəti yaradan Tanrı nədən insanları düyünlərlə imtahan edir? Nədən içində Tanrı nuru gəzdirən insan xoşbəxt ola bilmir. Yəni "Dünya imtahan yeridir", – fikri səbəbsiz formalaşmayıb. İnsanın ömrü Tanrının insanlara bəxş etdiyi düyünləri açmaqla keçir. Bir düyünü həll edirsən, digər bir problem yaranır. Elə düyünlər var ki, açılması müşküldür. Və elə insanlar da var ki, ağıl və zəkası ilə ən müşkül düyünü açmağı bacarır. "Qədim yunan əfsanəsinə görə Finikiyada Zevs məbədinin kahini xəbər verir ki, ilk kim şəhər qapısından içəri daxil olarsa, o da ölkənin ən möhtəşəm hökmdarı olacaqdır. Şəhərə ilk öz arabasında naməlum kəndli Qordion daxil olur və onu Finikiya hökmdarı elan edirlər. Bu hadisəyə şükranlığını bildirmək üçün Qordion öz arabasını Zevs məbədinə bəxşiş edir. Öz arabasını zoğal ağacının liflərindən hazırlanmış kəndirlə çox mürəkkəb bir düyünlə paytaxtın qala divarlarına bağlayır. Rəvayətə görə, hər kim ki, bu düyünü açmağa nail olardısa, Asiya qitəsinin sahibi olacaqdı".* E.ə. 334-cü ildə şəhəri işğal edən Makedoniyalı İsgəndər, Qordion tərəfindən vurulmuş ən müşkül düyünü açır. Düyünü açmaq məqsədilə xeyli baş sındıran gənc sərkərdə qılıncının zərbəsi ilə düyünü kəsir. Kahin buna belə bir məna verir: "O, cahana sahib olacaq! Amma siyasət (diplomatiya) ilə deyil, qılınc gücünə". Günümüzdə də "Qordi düyünü" dedikdə hər hansı müşkül, "qordi düyününü açmaq" dedikdə isə müşkül bir məsələni həll etmək kimi anlaşılır. Təəssüf ki, bir çox dövlət başçıları qarşılarına çıxan düyünləri diplomatiya ilə deyil, silah gücünə həll etməyə çalışırlar. Rahilin "Düyün" şeiri də bu baxımdan əhəmiyyətlidir. Şairin fikrincə, "Dünyamız düyündür göyün üzündə". İnsanın ömrü düyün altından çıxan düyünləri açmaqla keçsə də, Allahın açılmasını istəmədiyi, "düyün üstünə düyün vurduğu düyünlər" də var: "Yox, biz sıxılmırıq, düyünlər sıxır, / Dünyamız düyündür göyün içində. /Hər düyün altından bir düyün çıxır,/Adam düyün düşür düyün içində." Və ya, "Biz altdan yuxarı baxırıq göyə, / Elə hamı düşür göyün üstünə./Elə düyünlər var açmayaq deyə,/Allah düyün vurmuş düyün üstünə" [12, s.35].

Göründüyü kimi, Rahil bir çox şeirlərində mütəfəkkir kimi qarşımıza çıxır: "Bilmirəm, özümdə yaşadım kimi, / Odamda bildiyim odamda yoxdu" [12, s.35]. Mövcud, eyni zamanda görünməz olan şeylər kimi, məsələn hiss, ağıl, duyğu və s. şairin də "odasında bildiyi, eyni zamanda da "odasında olmayan" kimi, "dünyada düyünü olmayan ağac və adam da yoxdur" [12, s.35]. Anam deyərdi ki, "ağaca salam ver, canlıdır". Bəlkə buna görə Tanrı adam kimi, canlı ağacına da düyün verib.

Hər addımı düyün, yolları düyün olan insanın taleyinə düşən düyünləri açması o qədər də asan deyil. Bu düyünlərin müşkülündən, şairin "gözündən başlanan, yanağı boyunca axan çayın qolları da düyün, qaşı da düyün".

"Taleyimə düşən bu paya bir bax, /Hər addımı düyün, yolları düyün./Gözümdən başlanan bu çaya bir bax,/Yanağım boyunca qolları düyün." Və ya

* Qordi_düyünü / www.wikimedia.az-az.nina.az

"Nolar ki, açıla yaşın düyünü,/Ömrümə bir ömür toxuya biləm./Deyirəm açıla qaşın düyünü, /Alnımın yazısın oxuya biləm [12, s.35]. Bəzən "qədər" mənasında da işlədilən alın yazısını oxumaq olarmı?

İslami düşüncəyə görə, Allah-Təala keçmişi, bu günü və gələcəyi eyni anda görən əzəli və hüdudsuz elmi ilə insanın nə zaman doğulacağı, nə vaxt öləcəyi, nələr edəcəyi də daxil olmaqla hər şeyi qabaqcadan bilir və bunları "Lövhi-Məhfuz"da ən incə təfərrüatına kimi qeyd edir. Qədər anlayışı bütün varlıqları (canlı-cansız) əhatə etsə də, "alın yazısı" qədərin insanla bağlı tərəfini ifadə edir. İnanca görə, insan hələ dünyaya gəlməmişdən tale yazısı yazılır. Dini ədəbiyyatda bu təsdiqlənməsə də, fatalist olduğum üçün "alın yazısı"na, insanın yazılanı yaşadığına inanıram. Şair də "alın yazısı"na inanır, alnına yazılan düyünün açılmasını da bu səbəbdən istəyir.

Rahil Tahirlinin şeirlərini "Qələm çürüdü qəmdən", "Yaş aparır göz yükünü", "Dərd köynəyim uzun gələr", "Döydüyüm qapılar üzümə bağlı", "Qərib bir adam", "Adam baxır gözündən", "Yox", "Hər şey adiləşir hamıda bir gün", "Torpaq ağzını açanda", "Adam bu dünyaya yox demədikcə" və s. bir məqalədə küll halında təhlil etmək təbii ki, mümkün deyil. Ancaq "Gəlib sahilinə çatdığım dəniz" şeirinə də toxunmadan olmaz. Çünki Rahilin "Dəniz" şeiri onun fəlsəfi düşüncələrini öyrənməkdə açar rolunu oynayır.

Qədim zamanlardan sonsuz sevginin simvolu olan dənizə saysız-hesabsız şeirlər yazılıb, nəğmələr bəstələnib. Rahilin "Gəlib sahilinə çatdığım dəniz" şeirinə də mahnı bəstələnib. Yaddaşıma həkk olunan "Düşüb göz yaşımın izinə bir vaxt / Gəlib sahilinə çatdığım dəniz" – misrasında şair romantik duyğularından çox fəlsəfi düşüncəsini pıçıldayır. Ədəbiyyatda gözəlliyin, ənginliyin, hüzurun, maviliyin simvolu kimi işlənən dəniz, Rahil Tahirlinin şeirində mistik bir məna kəsb edir. Təsəvvüfdə mistik əhvali-ruhiyyə dəniz metaforası ilə ifadə olunur. Mistik mənada dəniz birlik, damcılar və dalğalar çoxluqdur. Rahilin "göz yaşlarının izinə düşərək gəlib sahilə çatması" fəna-fillah mahiyyətindədir. İzahlı dini terminlər lüğətində yazılır: "Fəna-fillah öz cismani vücudunu və maddi ... insanın da bədəni sanki sahil, varlığı isə dəniz kimidir. Fəna Allahda fani olmaq, bəndənin bəşəri xüsusiyyətlərindən və pis arzulardan uzaqlaşıb, ilahi vəsflərə qərq olması halıdır". Füzuli yazır: "Məndə olan aşikar sənsən / Mən xod yoxam ol ki, var sənsən". Rahil isə yazır: "Düşüb göz yaşımın izinə bir vaxt / Gəlib sahilinə çatdığım dəniz. / Özümə yazdığım məktubu salıb / Şüşənin içinə atdığım dəniz" [12, s.109].

Dənizin sahilinə çatmaq, bədəni bəşəri xüsusiyyətlərdən arındırmaq və ilahi vəsflərə qoşmaq üçün öncə birlik və çoxluğun simvolu olan dənizə baş vurmaq gərəkdir. Bəzən Rahilə, şair deməkdə acizlik hiss edirəm. Rahil mütəfəkkircəsinə mərifət dənizinə baş vurur, arınır, ilahi vəsflərə qərq olur. Bu, damlanın dənizə qatılaraq itməsidir. Sahilə çatan onun bədənidir: "Sənin duyduğundan çoxunu duyub, /Səndəki sevdiyim qoxunu duyub, / Gəlib içindəki qorxunu duyub/Uzanıb yanına yatdığım dəniz [12, s.109].

### Nəticə / *Conclusion*

Beləliklə, Rahilin şeirlərini oxumaq onun dünyagörüşünü oxumaq, fəlsəfi düşüncələrini oxumaqdır. Onun özünüdərkə qədəm qoyduğunu, özündən-özünə səyahətini izləməkdir. Məqalədə, XIII əsrdə yaşamış mütəsəvvüf Mövlanə Cəlaləddin Ruminin fəlsəfəsini, bəşəri eşqdən ilahi eşqə addımlama mərhələsini XXI yüzildəki davamçısı Rahil Tahirlinin şeirləri ilə paralel olaraq təhlil edilir. Bu qənaətə gəlinir ki, Rahilin şeirlərində Mövlanənin ruhu, nəfəsi duyulur. "Aynadakı adam"ın misralarına pıçıldadıqları onun, eyni zamanda Mövlanənin fəlsəfi düşüncələrinin inikasıdır, ney kimi inləyən könlünün təlatümüdür, anlatmaq istədikləridir, mövcud olmayanla – Tanrı ilə ünsiyyətidir, ruhunun aynasıdır. Rəqəmlər sonsuz olduğu kimi, təfəkkürün sonu heyrət, heyrətin sonu vəhdəti-vücuda – Tanrıya yüksəlməkdir!





### Ədəbiyyat / *References*


1. Çelik, İsa (2007). Hz.Mevlana'nın düşüncesinde aşk kavramı / Mevlana Celaleddin Ruminin 800. yıldönümü anısına. Uluslararası Mevlana ve Mevlevilik Sempozyumu. Bildiriler, cilt 1. – s.181-190.
2. Əttar, F. Mantıkut-Tayr (Çeviren: Mustafa Çiçekler), İstanbul, Kaknüs Yayınevi, 2006.
3. Gölpınarlı, Abdülbaki. Mesnevi, I, Ankara: 1988.
4. Gölpınarlı, Abdülbaki. Mesnevi Tercümesi ve Şerhi. V, İnkilap Kitabevi. – İstanbul, 1990, beyit 3854-3856.
5. İbn Arabi. İlahi aşk. İnsan Yayınları. – İstanbul, 1992.
6. Kasapoğlu Abdurrahman. Kur'anda İmam Psikolojisi. – İstanbul: Yalnızkurt Yayınları, 1997.
7. Qurani Kərimin tərcüməsi. (Tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev). – Bakı: Qismət nəşriyyatı, 2008.
8. Mevlana. Mesnevi. (trc.Çev.Veled İzbudak). – İstanbul: MEB Yayınları, 1998.
9. Məmmədəliyev V, İsmayılzadə N. Mövlanə, Qur'an, İlahi eşq / BDU-nun ilahiyyat fakültəsinin Elmi məcmuəsi, № 22, 2014. – s.7-18.
10. Rice, D. Storm. "Bir Selçuk Aynası" (trc. Ahmet Uysal), Milletlerarası Birinci Türk Sanatları Kongresi (Ankara 19-24 Ekim 1959): Kongreye Sunulan Tebliğler. – Ankara, 1962. – s.330-332.
11. Soysaldı, İhsan. Tasavvufta Aşk ve Marifet. Fırat Üniversitesi İlahiyat Fakültesi Dergisi, say 3, 1998, – s.187-216.
12. Tahirli, Rahil. Aynadakı adam. – Bakı: Mücrü nəşriyyatı, 2024.
13. Topçu, Nurettin. Aşkın halleri. Hareket, sayı 77, Mayıs, 1972.
14. Yargıcı, A. Mevlana'nın Allah sevgisi (aşkı) ile ilgili şiirlerinin Kur'an açısından değerlendirilmesi. Harran Üniversitesi İlahiyat Fakültesi Dergisi, sayı: 18, Temmuz-Aralık, 2007. – s.109-117.


## Мотивы Джелаледдина Руми в творчестве Рахиля Тахирли

**Лютвия Аскерзаде**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Резюме.** Течение мовлавийе, сформировавшееся вокруг идей великого мыслителя и поэта-мистика, основателя турецкого суфизма Мевланы Джелаледдина Руми, и получившее способность проникать везде, где расширялась география империи, уже семь веков является спутником людей, вступивших на путь самопознания.
Живущий и пишущий в XXI веке поэт, публицист Рахиль Тахирли является одним из поэтов, поэтически выразивших в своих стихах философские идеи Мевланы. В статье анализируется философия жившего в XIII веке Мевланы Джалаледдина Руми об этапе перехода от человеческой любви к любви божественной, как и в стихах последователя этих мыслей, поэта и публициста Рахиля Тахирли, живущего в XXI веке. Он путём сопоставления пытается найти параллели отражения, как в зеркале, сущности мыслей Мовланы и философию в целом: суфийские воззрения о Боге, человеке, мире, вселенной, смерти. Делается вывод, что в строках Рахиля Тахирли видится модерновое отражение в XXI веке философских мыслей Мевланы, желание показать печальные страдания души, исходящие жалобными струнами нея, духовное общение с Богом.
**Ключевые слова:** Суфизм, любовь,зеркало, Джелаледдин Руми, Рахиль Тахирли